*Azərbaycan qadını hər zaman müqəddəs ana adını uca tutub, müdrikliyi, işgüzarlığı və ictimai-siyasi, mədəni həyatda fəallığı ilə seçilib. Tarixin bütün dönəmlərində Azərbaycan qadını Vətənimizin müdafiəsində kişilərlə çiyin-çiyinə iştirak edib, dövlət quruculuğunda çalışıb. "Kitabi-Dədə Qorqud" dastanında Azərbaycan qadınlarının savaş meydanında göstərdiyi şücaət, Möminə Xatun, Sara Xatun, Nüsabə, Tomris, Nigar, Həcər, Tutu Bikə kimi dövrünün öncül qadınlarının qəhrəmanlıqları bütün dünyada məşhurdur. Şərqdə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlara seçmək və seçilmək hüququnun verilməsi də böyük tarixi hadisədir. Sovet Azərbaycanı və müstəqillik dönəmlərində qadınlarımız ictimai-siyasi və mədəni həyatda fəal rol oynayıblar.*

# Azərbaycan qadınlarının fəth edə bilməyəcəyi zirvə yoxdur



Maariflənməklə yanaşı, milli dəyərlərə də sadiq qalan qadınlarımız ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı və daşıyıcılarıdır. Azərbaycan Konstitusiyası qadın və kişilərə eyni hüquq və azadlıqları verir. 1995-ci ildə keçirilmiş IV Ümumdünya Qadın Konfransında Azərbaycan Pekin Bəyannaməsini və Fəaliyyət Platformasını qəbul etdi. Platformanın əsas məqsədi qadınların siyasi, iqtisadi və sosial vəziyyətlərinin yaxşılaşdırılmasıdır. 1998-ci il sentyabrın 25-də keçirilmiş Azərbaycan qadınlarının ilk qurultayı dövlət qadın siyasətinin tarixində mühüm hadisədir. Həmin ildən etibarən hər beş ildən bir Azərbaycan qadınlarının qurultayları keçirilir. Bu qurultaylar dövlət qadın siyasəti sahəsində ən əlamətdar və böyük hadisələrdən biri kimi qiymətləndirilir. Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti boyunca ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi. Ölkəmizdə dövlət səviyyəsində qadın siyasətinin əsasını qoyan ümummilli lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə inkişaf edən ölkəmizdə gender siyasətinin əsas prinsiplərinə əməl olunur. Qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunlar qəbul olundu. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva səmərəli fəaliyyəti ilə həm ölkədə, həm də beynəlxalq aləmdə Azərbaycan qadınının nümunəvi obrazını yarada bilmişdir. Mehriban xanım Əliyevanın hərtərəfli parlaq fəaliyyəti, xeyirxahlıq missiyası, mədəniyyətimizin bütün dünyada təbliği sahəsində gördüyü işlər əsl örnəkdir.

Azərbaycan Ordusunun bütün qoşun növlərində yüzlərlə qadın xidmət edir, Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər. Zərif cinsin nümayəndələri təkcə ailə adlı qalanı qorumurlar, onlar həm də hərbi libas geyinib Vətənin müdafiəsinə qalxırlar. 1941-45-ci illərdə Azərbaycan qadınları kişilərlə bərabər silaha sarılmışdılar. Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycan qadınlarının qəhrəmanlığı ölçüyəgəlməz oldu. Qadınlarımızın sarsılmaz dəstəyi, analarımızın övladlarına verdiyi vətənpərvərlik tərbiyəsi sayəsində Ordumuz 44 günlük Vətən müharibəsində parlaq qələbə qazandı. Qəhrəman oğullarını, hətta iki övladını vətənə qurban verən anaların, ər, qardaş tabutunu çiynində daşıyan vəfalı həyat yoldaşının, bacıların timsalında biz Vətən müharibəsində əsl fədakar Azərbaycan qadınını görə bildik. Qadınlarımızın ölkənin tərəqqisində danılmaz payı var. Bu gün Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır. Onlar elm, təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmağa nail olurlar. Azərbaycan elminin inkişafında qadınların aktivliyi hər keçən il daha da artır. 2023-cü ilin göstəricilərinə əsasən ölkəmizdə elmi işçilərin 59,2 faizi qadınlardır. Ötən il də doktorantura pilləsində qəbul olunanların 50 faizdən çoxunu qadınlar təşkil edib. Eyni zamanda dünyada və ölkəmizdə texnologiya sahəsində qadınların iştirak payı 30 faizdir.

Azərbaycanın dövlət və qeyri-dövlət ali məktəblərində 2023-2024-cü tədris ilinin əvvəlinə təhsil alan qadınların sayı 118 min 290 nəfər olub. Bu göstərici 2010-cu ildə 65 min 112, 2015-ci ildə 78 min 662, 2021-ci ildə 97 min 163 olub. 2022-ci ildə isə 111 min 583 qadın ali təhsil ala bilib. Azərbaycan qadını ölkənin bütün sahələrində olduğu kimi Milli Məclisdə də uğurla təmsil olunur. V çağırış Milli Məclisə 21, VI çağırış Milli Məclisə 22, VII çağırış Milli Məclisə 26 qadın deputat seçilmişdir. Milli Məclisin sədri Sahibə Qafarova Azərbaycan dövlətini xarici ölkələrdə, beynəlxalq tədbirlərdə layiqincə təmsil edir. Azərbaycan qadınları bütün sahələrdə zirvələri fəth etmək gücündədir.

**Mehriban VƏLİYEVA,**
**Milli Məclisin deputatı.**